*İttifaq Mirzəbəyli – 70*

# Mirzəbəyli dünyası...

**Əvvəlcə ötən əsrin 90-cı illərində hər həftə dinlədiyimiz bir radio verilişinin başlanğıcını xatırladaq: "Salam, sabahınız xeyir olsun, hörmətli dinləyicilər. "Səhər" musiqili informasiya proqramı efirdədir. Bugünkü aparıcınız mənəm – İttifaq Mirzəbəyli. Söhbətimizə bu səhər işə gələndə şahidi olduğum bahar lövhəsi ilə başlamaq istəyirəm. Məsəl var, deyirlər ki, yaz dumanı bar gətirər, qış dumanı qar. Bəli, bu gün yaz dumanı sanki paytaxtımızı qucağına götürüb..."**

İttifaqın həmin verilişinin bu girişini eşidəndə yanımdakılara demişdim ki, o, bizim tələbəmiz olub. O, hər verilişində dinləyiciləri, həqiqətən, səmimi bir söhbətə dəvət edirdi. Hər gün onlarca şəhid gələn, hər ay bir neçə yaşayış məntəqəsi işğal edilən ölkəmizdə quru, sxolastik verilişlərə deyil, məhz aparıcının dinləyicilərlə söhbətinə ehtiyac var idi. İttifaq həmin işin öhdəsindən bacarıqla gəlirdi.

İndi isə onun həzin, həm də kədərli bir nəğməyə bənzəyən sətirlərini xatırlatmaq istəyirəm: "Buluddan soruşmaq istədim ki, sən atamın məni qucağında sudan keçirib məktəbə yola saldığı gün çayı daşdıran buludsanmı? Qaratoyuqdan soruşmaq istədim ki, sən hər səhər dan yeri sökülməmiş oxuyub Cəvahir nənəmi ağladan quşsanmı? Səmanı, bütün göy üzünü işıqlandıran Aydan soruşmaq istədim ki, anamın iki cavan qardaşı ölən gecə sən niyə dünyanı işıqlandırmadın? Qəbiristsanlığın yaxasından tutub soruşmaq istədim ki, sən mənim anamı necə uddun? Çiçəklənmiş heyva ağacından soruşmaq istədim ki, mənim otuz yaşlı, dörd körpənin anası olan bacım öləndən sonra sən niyə ölmədin, niyə qurumadın, niyə yenə də çiçəkləyirsən?

Soruşmadım... Nə deyəcəkdilər ki? Uzaq başı bulud deyəcəkdi ki, məni o gün külək azdırmışdı. Qaratoyuq deyəcəkdi ki, min illərlə belə oxumuşamsa, başqa nəğməni necə tapaydım? Ay deyəcəkdi ki, buludlar qabağımı kəsmişdi. Qəbiristanlıq deyəcəkdi ki, mən heç kəsin dalınca getmirəm, insanların son məkanı mənəm. Heyva ağacı məndən soruşa bilərdi ki, bəs sən niyə ölmədin?

Ona görə də heç kəsdən heç nə soruşmadan bütün acılı-şirinli xatirələrimi, kiminləsə paylaşa bilmədiyim kədərimi... bir də, elə öz canımı xurcuna döndərdiyim ürəyimə dolduraraq qayıtdım Bakıya".

Dostum İttifaq Mirzəbəylinin belə yazıları nə qədər, bir özü, bir də Allah bilir. O, kiminsə toyunda hamıdan xoşbəxt görünəndə də canı dediyi "xurcun"da olur, paytaxtın ən mötəbər mədəniyyət mərkəzlərində böyük məmnunluqla çıxış edəndə də, lap elə "tamadalıq elədiyi" məclislərdə də. O, ən şaqraq muğamlarımızdan olan "Şur Şahnaz"ı oxuyanda da (mən onun gənclik illərində həmin ifasını dəfələrlə eşitmişəm), gənclərlə dolu auditoriyada öz şeirlərini söyləyəndə də ürəyi "xurcun"da olur.

...Qəbələnin Mirzəbəyli kəndi barədə söz düşəndə öncə görkəmli filoloq alim, professor Xalid Əlimirzəyevi, əlli illik dostum Valeri Vartanovu və 46 il əvvəl tanış olduğum, sonralar həm də dərs dediyim indiki 70 yaşlı Əməkdar jurnalist, müasir siyasi publisistikanın tanınmış nümayəndələrindən biri, özünəməxsus yolu, cığırı, izi olan İttifaq Mirzəbəylini xatırlayıram.

Mən Mirzəbəyli kəndində dəfələrlə olmuşam. O kəndin öz dünyası var. Oradakı soydaşlarımız həmin torpağın qədim sakinləri olan udilərlə və nə vaxtsa Dağıstanın Axtı rayonundan köçüb gəlmiş ləzgilərlə elə səmimi münasibətdə, mehriban və dostcasına yaşayırlar ki, bəzən kimin hansı millətdən olduğu da bilinmir. Elə adını çəkdiyim Xalid müəllim ləzgi, dostum Valeri udi, tələbəm olmuş İttifaq isə azərbaycanlıdır. Buradaca xatırladım ki, İttifaq Mirzəbəylinin də özünəməxsus daxili aləmi, spesifik dünyası var.

Mən indiyədək İttifaq qədər tez əsəbiləşib özündən çıxan və onun qədər tez barışıb hər şeyi unudan bir adam tanımamışam. O, həyatda da belədir, bədii yaradıcılığında da, siyasi yazılarında da. O, sözün həqiqi mənasında, ovqat adamı, söz adamıdır. Gənclik illərində kolxozda mexanizator işləyəndə də ştatdankənar jurnalist kimi fəaliyyət göstərib, Bakıda – neftçıxarma idarəsində və peşə məktəbində müəllim işləyəndə də.

...Mən onu 1976-cı ildən – neftçilərin Bayıldakı Mədəniyyət evində fəaliyyət göstərən "Müşfiq bulağı" ədəbi birliyindən tanıyırdım. O zaman İttifaqın dəhlizdə əkilmiş ucaboylu bir ağacı bəhanə edərək ictimai həyatda, aramızda olan arxalı, dayılı, həm də lazımsız adamlara həsr etdiyi bir şeiri var idi. Şeirin son bəndini hələ də xatırlayıram:

*Sənin kimi yaşamağa nə varmış,*
*Sinən külək, başın çovğun görməyib.*
*Sənin kimi yaşamaq... kimə lazım,*
*Hələ səndən heç kim nübar dərməyib.*

Onun cəmiyyətə heç bir faydası, xalqa, dövlətə səmərəsi olmayan "bəxtəvər" yaşıdlarını bu səviyyədə qınaması təsadüfi deyildi. Çünki özü İkinci Dünya müharibəsindən əlil qayıtmış atanın, tütünçü ananın övladı kimi ehtiyacın ən ağır üzlərini görmüş adamdır. Danışırdı ki, hətta ailəmiz məni ali məktəbə imtahan verməkdən ötrü Bakıya göndərməyə 50-60 manat pul tapa bilmirdi.

Bəs sonra nə oldu? İttifaq bütün yaşıdlarından beşqat artıq uğura imza atdı. Yeddi il Heydər Əliyev kimi siyasət dahisinin bütün tədbirlərini izləyərək işıqlandırmaq, İlham Əliyev kimi dünya miqyaslı dövlət xadiminin imzası ilə fəxri ada layiq görülmək, otuz dəfəyə qədər jurnalist kimi müxtəlif ölkələrdə səfərdə olmaq, özünün də dediyi kimi, əllidən çox şəhərdə azan eşitmək, ölkənin bütün kitabxanalarının kartotekalarına düşmək, paytaxtın ən mötəbər mədəniyyət mərkəzlərində keçirilən tədbirlərin gah aparıcısı, gah da natiqlərdən biri olmaq... Bilmirəm, onu tanıyan yaşıdlarının hansısa bu səviyyəyə çata bilib, ya yox...

Ancaq kənddən gəlmiş kasıb kolxozçu oğlunun yolları həmişə rəvan olmayıb. Həmin məqamı bir şeirində belə xatırladır:

*Dişim dağı diddi, dırnağım daşı*
*Çevriləndə gördüm, təkəm dünyada.*
*Başımda o qədər "turp əkdilər" ki,*
*Düşündüm, turp üçün ləkəm dünyada.*

...Onun haqqında yaxşı jurnalist ifadəsini də işlədirlər, tanınmış şair-publisist, məsuliyyətli ictimaiyyətçi epitetlərini də. Hətta yaxşı məclis aparıcısı olduğunu deyənlər də var. Mənim fikrimcə isə, İttifaq bugünkü ictimai fikrimizin ən mahir təbliğatçılarından biridir. Yeri gəlmişkən, bir neçə ay əvvəl İttifaqın "Xalq qəzeti"ndə Qazaxıstanın Aktau şəhərindən göndərdiyi kiçik bir yazını oxumuşdum. O, Aktauda Günəşin doğmasını və batmasını necə mənalandırmışdısa, həmin sətirləri oxuyanda ürəyim riqqətə gəlmişdi.

Onun istənilən uğurunu eşidəndə sevinir və deyirdim ki, İttifaq İncəsənət İnstitutunda bizim tələbəmiz olub. İndi isə onun nailiyyətləri ilə tanış olanda dərhal deyirəm: O, mənim dostumdur. 70 yaşın mübarək, əziz dost!



**Şəkildə: Soldan Telman Haqverdiyev, müğənni Oqtay Kərimov, yazıçı Firudin Ağayev, İttifaq Mirzəbəyli və tarzən Tofiq Zeynalov. Bakı, Bayıl, 1978-ci il**

***Telman HAQVERDİYEV,***
***fəlsəfə elmləri namizədi,***
***ADPU-nun dosenti***